# İnformasiya cəmiyyəti və kitabxanalar

*Son zamanlar müasir kitabxana fəaliyyətində elmi cəhətdən böyük irəliləyişlər baş verir. Bu dəyişikliklər informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə, kitabxanadan istifadə edən oxucuların ehtiyaclarına uyğun olaraq informasiyaların operativ çatdırılması üçün yeni vasitələrin yaradılması ilə bağlıdır. Bu mənada, Xaçmaz Rayon Mərkəzi Kitabxanası da respublikada gedən dəyişikliklərlə, görülən işlərlə ayaqlaşmağa səy göstərir.*

Kitabxana Xaçmaz RİK-nin qərarına əsasən 1934-ci ildə yaradılmış, 1976-ci ildə mərkəzləşdirilmişdir. Kitabxana son illərdə rayon ərazisində fəaliyyət göstərən bütün təşkilatlarla işgüzar əlaqələr yaratmışdır. 2004-ci il məlumatlarına əsasən kitabxananın kitab fondu 40095 nüsxə olmuşdur. Son zamanlar müxtəlif mənbələrdən (müəlliflərdən; kitabxana kollektoru, Prezident aparatı, Azərbaycan Respublikası Milli Məclisi, Bakı təhsil mərkəzi, ABŞ səfirliyi, Exxon təşkilatı və s.) ana dilində latın qrafikalı və eləcə də ingilis dilində xeyli ədəbiyyat alınmışdır.

Kitabxana keçən ildən ABŞ səfirliyinin "Kitabxanaların İnkişafı Proqramı" layihəsinə qoşularaq, ictimai informasiya mərkəzi, daha dəqiq desək KİM kimi fəaliyyətini genişləndirməyə çalışır. Layihədə iştirak edən Xaçmaz Rayon Mərkəzi Kitabxanasının əməkdaşları ABŞ səfirliyinin təşkil etdiyi müvafiq kursları bitirmişlər. Həmin kursları müvəffəqiyyətlə başa vurub, aldığı biliklər zəminində yeni fəaliyyət istiqamətlərində öz işini qurmağı bacaran Xaçmaz Rayon Mərkəzi Kitabxanasının əməkdaşı Sevda İsmayılovanın son nəticə olaraq gəldiyi qənaətə diqqət yetirək: "Kitabxana işinin İnkişaf Proqramı üzrə Azərbaycanda görülən işlər vətəndaş cəmiyyətinin kitabxanalara cəlb olunmasında uğurlu addımlar olacaqdır".

Qeyd edək ki, ABŞ səfirliyi həmin proqram çərçivəsində adı çəkilən kitabxanaya 2 minə yaxın ədəbiyyat (ingilis dilində və latın qrafikasında çap olunmuş ana dilli nəşrlər) hədiyyə etmişdir. Həmin kitabxanada "informasiya gün"lərinin keçirilməsi artıq bir ənənə halını almış, yerli əhalinin kompüter texnologiyalarından istifadə etməklə müxtəlif məlumatlar və informasiya əldə etmək bacarığı, onların informasiya mədəniyyəti və fəallığı nəzərə çarpacaq dərəcədə artmışdır.

Kitabxanada müxtəlif dərnəklər də fəaliyyət göstərir. Dərnəklərin aparıcı mövzuları və təşkil olunan eskursiyalar auditoriyanın arzuladığı mövzular üzrə keçirilir.

Mərkəzi kitabxananın son illərdə təşkil etdiyi ən müvəffəqiyyətli tədbirlərdən biri "Bura Azərbaycandır" adlı dərnəkdir. Bu dərnəkdə Azərbaycan tarixi və rayonun mədəni abidələri öyrənilir. Misal olaraq, burada "Tarixin yaddaş borcu" adlı informasiya bülleteni hazırlanır. Həmin bülletendə İkinci Dünya müharibəsində iştirak etmiş 10 min və həlak olmuş 2800 xaçmazlının taleyindən söhbət açılır. Bülletendə verilmiş materiallar rus və ingilis dillərində həm çap, həm də elektron formada təqdim olunur. Qeyd etmək lazımdır ki, Respublikamızın heç bir kitabxanasında bu formada iş görülmür.

Kitabxanada müxtəlif oxucu qruplarına təmənnasız İnternet xidməti göstərilir, istifadəçilər müxtəlif məlumat bazalarına müraciət etməyin yollarını öyrənir, səriştəli kitabxanaçı-operatorların köməyi ilə onlar maraqlandıqları sahələr üzrə texniki bilik və vərdişlərini təkmilləşdirirlər.

Kitabxanada kompüter biliklərini öyrədən xüsusi kurslar təşkil olunur. İstifadəçilərin yaş həddi də müxtəlifdir. Burada yaşlı nəs-

lin nümayəndələrinin işgüzarlığı, heç də gənclərin fəallığından geri qalmır. Mərkəz, eyni zamanda, öz fəaliyyət istiqamətlərini təkmilləşdirəcək yeni layihələrlə çıxış edir. Əldə edilən bütün bu nailiyyətlər ABŞ səfirliyinin adı çəkilən proqram çərçivəsində kitabxanaya verdiyi informasiya texnikası əsasında və keçirilən təlim-tədris tədbirləri, treninqlər sayəsində əldə edilmişdir.

Oxucuların marağına səbəb olan belə tədbirlər respublikamızın bir sıra digər rayonlarında da təşkil edilir.

Son illərdə özünün yaxşı işləri ilə fərqlənən, kitab fondlarının zənginləşdirilməsinin qayğısına qalan, kitabxanaya daha çox oxucu cəlb etmək məqsədilə maraqlı tədbirlər keçirən, 2003-cü ildə Soros fondundan bir kompüter dəsti udan Qax rayon Mərkəzi Kitabxanası Respublikamızda qabaqcıl mədəni-maarif müəssisələrindən biri hesab olunur. Azərbaycan, gürcü və rus dillərində 320 min kitab fonduna malik olan kitabxana rayon oxucuları arasında böyük hörmət qazanmışdır. Kitabxanada müxtəlif forma və məzmunda maraqlı kütləvi tədbirlər keçirilir. Şəxsi kitabxanalarda istifadəsiz qalmış ədəbiyyatı oxucuların ümumi istifadəsinə vermək məqsədilə keçirilmiş "Kitab marafonu" adlı tədbirdən sonra ziyalılar min nüsxədən çox kitabı kitabxanaya hədiyyə vermişlər. "Xalqımıza qarşı cinayət" ("Qanlı yanvar"ın 15 illiyi), "Narkomaniya ağ ölümdür", "Sülh - zamanın tələbidir", "İnsan həyatında kitabın rolu", Mətbuat günü münasibətilə rayonun "Şəlalə" qəzeti əməkdaşları ilə görüş və s. son bir ildə keçirilmiş maraqlı tədbirlərdəndir. "Ziyalılar kəndi" kimi tanınan İlisu kəndi haqqındakı bu yaxınlarda çap olunmuş kitabın təqdimatı da (avqust, 2005) oxucular tərəfindən maraqla qarşılanmışdır.

ABŞ səfirliyi Qax rayon Mərkəzi Kitabxanasına da texnoloji avadanlıq hədiyyə vermiş, kompüter zalı açmış, otaqlardan birini əsaslı surətdə təmir etmişdir. Kitabxanada kompüter zalının açılması ilə əlaqədar pulsuz ingilis dili kursları təşkil edilmiş, buraya 30 nəfərə yaxın uşaq və gənclər cəlb olunmuşdur. Kitabxananın İnternet xəttinə qoşulması ilə əlaqədar olaraq kompüter kurslarına maraq artmış, kitabxanaya gələn istifadəçilərin sayı xeyli çoxalmışdır.

Bakıda fəaliyyət göstərən ABŞ səfirliyinin köməyi ilə KİM yaradılmış rayonlardan biri də Kürdəmirdir. Səfirlik, başqa rayonlarda olduğu kimi burada da kitabxananı texniki avadanlıqla təchiz etmiş, onu İnternet xəttinə qoşmuş, Azərbaycan və ingilis dillərindən xeyli kitab hədiyyə vermişdir.

KİM-nin açılışı ilə əlaqədar təşkil edilmiş tədbirdə Respublikanın keçmiş Mədəniyyət naziri Polad Bülbüloğlu da iştirak etmişdir. Burada çıxış edən nazir ABŞ səfirliyinin respublikamızın müxtəlif rayonlarında təşkil etdiyi informasiya mərkəzlərinin fəaliyyətindən xəbərdar olduğunu söyləmiş, bu işlə daima maraqlandığını və müntəzəm olaraq məlumat aldığını və ABŞ səfirliyinə öz minnətdarlığını bildirmişdir.

Tədbirlə əlaqədar olaraq kitabxanada səfirliyin verdiyi kitabların geniş sərgisi də təşkil edilmişdir. ABŞ səfirliyi belə tədbirləri planlı surətdə həyata keçirir. Oxucuların sevincinə səbəb olan növbəti tədbir 2005-ci ilin avqust ayının 4-də respublikamızın şəfalı guşəsi olan Oğuz rayonunda keçirilmişdir. Rəsmi təntənəli açılış mərasimində keçmiş mədəniyyət naziri Polad Bülbüloğlu, ABŞ-ın Azərbaycandakı səfiri Reno Harniş və başqa rəsmi şəxslər iştirak etmişlər.

Nazir öz nitqində ABŞ Səfirliyinin "Region kitabxanalarının inkişafı proqramını dəstəkləmişdir və bu proqramın daha da genişləndirilməsi haqqında fikrini belə izah etmişdir: "Bu proqramın əhəmiyyəti Azərbaycanın regionlarında çox böyükdür.

Proqram əhalinin maarifləndirilməsində və yeni informasiya texnologiyalarından geniş istifadə edilməsində vacib rol oynayacaqdır. Kitabxana - İnformasiya Mərkəzinin regionlarda fəaliyyət göstərməsi indiki zamanda çox vacibdir, günki bu tədbir Respublikada regionların inkişafı proqramı ilə eyni vaxtda başlanmışdır".

Sonra çıxış edən Reno Harnis öz nitqində bu proqramın Azərbaycanın region kitabxanaları üçün vacib olduğunu vurğulamışdır. "Kitabxanaların inkişafı proqramı "Respublika kitabxanalarının inkişafı ilə bərabər, onların rolunu müasir vətəndaş cəmiyyətinin yaradılmasında və möhkəmləndirilməsində, bu prosesə geniş ictimaiyyətin cəlb olunmasında görür.

Proqram həmçinin, Azərbaycan və Amerika xalqlarının arasındakı əlaqələrin inkişafına və maarifləndirmə vasitəsilə azad informasiya təminatına rəvac verən tədbirlərin həyata keçirilməsini də məqsədəuyğun sayır.

Proqram çərçivəsində hər bir rayonda təşkil olunan regional KİM-in modeli əsasən belədir: uşaqlar üçün qiraətxana, İnformasiya mərkəzi, Kitab fondu, Kataloqlar sistemi , Metodiki guşə, otaqlar və s. ibarətdir. Mərkəzlərə latın qrafikası ilə nəşr olunmuş xeyli ədəbiyyat - bədii qiraət üçün kitablar, lüğətlər, ensiklopediyalar, Ekson Mobilin nəşrləri hədiyyə olunmuş (on mindən artıq), pulsuz İnternet təminatı, EBSCO elektron məlumat bazasından pulsuz istifadə etmək imkanı yaradılmışdır. Mərkəzlərin əməkdaşları arasında namizədlər seçilərək trener hazırlığı kurslarına dəvət olunmuşlar. "Fasiləsiz təhsil" proqramı çərçivəsində kitabxanaçıların professional səviyyələrinin yüksəldilməsi məqsədi ilə ABŞ səfirliyinin Bakıdakı mərkəzində vaxtaşırı məşğələlər təşkil edilir. Mərkəzdə təhsil alan iştirakçılara sertifikatları ABŞ-ın Azərbaycandakı səfiri Reno Harniş özü şəxsən təqdim etmişdir. Hazırda məşğələlərin növbəti mərhələsi davam etdirilməkdədir.

Təlim kursları "Müasir cəmiyyətdə yeni texnologiyalar və informasiya", "Əlavə maliyyə resurslarının axtarışı", "Kitabxana menecmenti", "Kitabxanaşünaslığın aktual problemləri" və s. mövzular üzrə aparılır.

Səfirliyin rayonlarda gördüyü işlərin xoşagələn cəhətlərindən biri də ondan ibarətdir ki, KİM-nə verilən texniki avadanlıqların yerləşdiriləcəyi otaqların səliqə-sahmanına da diqqət yetirir, lazım gəldikdə onların təmirini də öz öhdəsinə götürür. Məsələn, Kürdəmir, Qəbələ, İsmayıllı, Qax və başqa rayonlarda kompüter otaqları və İnternet zalı təmir olunduqdan sonra istifadəçilərin ixtiyarına verilmişdir. İndi bu otaqlar həmişə oxucu-istifadəçilərlə dolu olur.

Onu da qeyd edək ki, hər bir rayon KİM-i üçün sistem inzibatçısının əmək haqqını da, dəftərxana ləvazimatının xərclərini də səfirlik öz üzərinə götürmüşdür. Yaradılmış regional KİM-lərində əhalinin, maddi durumu zəif olan insanların informasiya fəallığının əhəmiyyətli dərəcədə artması hiss olunur. Sevindirici haldır ki, İnternet vasitəsilə məktublaşmaq, iş axtarmaq, məlumat bazalarından istifadə etmək, qəzet, jurnal və müxtəlif nazirliklərin saytlarına müraciət etmək vərdişinə yiyələnən istifadəçilərin axını gündən-günə artır.

Səfirlik bu xeyirxah işi uğurla davam etdirir və növbəti mərhələdə, yuxarıda qeyd etdiymiz istiqamətlərdə işlər daha da genişləndirilir. Buna misal olaraq, Ağcabədi rayonunda yeni tipli modern kitabxana binasının inşasını, nəzərdə tutulan kitabxanalararası elektron əlaqələrinin - şəbəkənin yaradılmasını və s. göstərmək olar. Yaradılacaq şəbəkə vasitəsilə regionlarda kitabxanaçılar arasında iş təcrübəsinin öyrənilməsi, birgə layihələrin hazırlanması, ideya və resurs mübadiləsinin təşkili də nəzərdə tutulur.

Məlumat üçün onu da qeyd edək ki, Bakı şəhərində fəaliyyət göstərən kitabxanalar da səfirliyin diqqətindən kənarda qalmamışdır. Təkcə 2004-cü il ərzində onlara 4000 min nüsxəyə yaxın ədəbiyyat ianə olunmuşdur.

Bu sahədə ABŞ səfirliyinin müvafiq proqramı üzrə məsul olan və proqramın rəhbəri, səfirliyin İctimai əlaqələr bölməsinin koordinatoru Tereza Markivin və "Region kitabxanalarının İnkişafı Proqramı"nın əlaqələndiricisi Şəhla Xudiyevanın səyləri xüsusilə qeyd olunmalıdır.



"Kitabxana işinin inkişafı" proqramının müvəffəqiyyətinin bir aspekti də bu işin nəzəri-metodoloji əsaslarının işləyib hazırlamış və müasir kitabxana-informasiya biliklərinə və Azərbaycan kitabxanaçılığına yaxından bələd olan Ş.Xudiyeva kimi idarəetmə bacarığına malik peşəkar kadrın səriştəli fəaliyyəti ilə bağlıdır. Proqramın strateji fəaliyyət istiqamətlərini Azərbaycan kitabxanaçılığının ehtiyaclarına yönəltmək üçün onun tərtib etdiyi "Sorğu anket"ləri diqqəti cəlb edir. Burada kitabxana-informasiya işlərinin inkişaf strategiyası, kitabxana qanunvericiliyinin tətbiq dairəsi, məqsəd və missiyası, kitabxana fondlarının komplektləşdirmə mənbələri, məlumat-biblioqrafiya aparatı, kadrların "fasiləsiz təhsil" sisteminin təşkili, innovasiya layihələri, kitabxana işi sahəsində ictimai birliklərin fəaliyyəti və s. mövzular üzrə məlumatlar öz əksini tapır. Anketdəki sorğular təhlil edildikdən sonra, hər bir kitabxananın əsas göstəriciləri - oxucularının ümumi sayı, kitab fondlarının miqdarı və tərkibi, fondların dövriyyəsi və oxucu davamiyyəti, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsi, İnternet təminatı, beynəlxalq əlaqələri və s. haqda məlumatlara əsasən kitabxananın gələcək fəaliyyət strategiyası müəyyənləşdirilir.

Eyni zamanda, əhalinin daha geniş təbəqəsinin, xüsusilə də onun zəif müdafiə olunmuş sosial qrupların - qadınların, əlillərin, təqaüdçülərin, qaçqındarın və s. informasiyaya azad çıxışını təmin etmədən vətəndaş cəmiyyəti və hüquqi dövlət qurmaq çətindir. Əfsuslar olsun ki, bu mənada, çox faydalı gələcəyi olan informasiya mərkəzlərinin Azərbaycan ərazisində sayı hələlik məhdud, əhatə dairəsi dardır. Məhz buna görə regional kitabxanaların bazasında onların təşəkkülünə, geniş şəbəkəsinin yaradılmasına böyük ehtiyac var. Ümumiyyətlə, informasiya mərkəzi kimi kitabxanalar tarixən oxucular üçün özünü təsdiq etmiş və böyük hörmət qazanmış ən etibarlı müəssisədir və onlar:

-Azərbaycanın regionlarında kiçik və orta biznesin informasiya təminatının infrastrukturunun yaradılması,

-Ümumi iqtisadi, sosial, mədəni problemlərin həllində dövlət təşkilatları ilə əməkdaşlıq çərçivəsində fəaliyyətin təmini,

-Coğrafi mövqeyindən asılı olmayaraq, əhalinin işgüzar və hüquqi informasiya təminatının həyata keçirilməsi,

-Əhalinin müxtəlif təbəqələrinə, dövlət orqanları və yerli idarəetmə müəssisələrinin rəsmi informasiyasının operativ çatdırılması,

-Regionun inkişaf perspektivlərini təmin edən informasiya sistemlərinin yaradılması təcrübəsinin öyrənilməsi, mənimsənilməsi və tətbiqində və s. - sahələrdə əsas informasiya bazası, resurs mərkəzi kimi indi də fəaliyyət göstərməyə qadirdirlər. İndi onun imkanları daha çoxdur.

Kitabxana İnformasiya şəbəkəsinin formalaşması, əhalinin müxtəlif sosial təbəqələri ilə daha çox təmasda olan və məlumatın seçilib sistemləşdirilməsi və paylanması istiqamətində təkmilləşmiş mexanizmə, informasiya bazasına, inzibati bölümə malik olan kitabxanalar başqa mədəniyyət- maarif müəssisələri arasında ən əlverişli qurumdur:

İqtisadi baxımdan:

-İqtisadi, hüquqi, sosial, mədəni və digər məlumat resurslarının birləşdiyi informasiya mühiti üçün əsas bazadır;

-İnternet vasitəsilə yaradılmış şəbəkə məhz kitabxanaların informasiya bazaları və xidmət servisinə əsasən bütün şəhər, rayon və kənd əhalisinin istifadəsinə verilir;

-Müasir informasiya texnologiyaları əsasında yaradılmış Mərkəzlərin fəaliyyəti və inkişafının əlaqələndirilməsi üçün kitabxanalarda münbit şəraitin olması;

-Regionun inkişafına investisiya və ya kapitalın cəlb edilməsinə təsir göstərilməsi üçün kitabxanalar ən yaxşı təbliğat institutu olması;

Sosial baxımdan:

-İşgüzar və hüquqi əlaqələrin inkişafı, müxtəlif peşə sahiblərinin, iş adamlarının əlaqələndirilməsi üçün kitabxanalara müraciət etmək əhali üçün daha sadə üsul olub, artıq xərclər tələb etmir .

-Vətəndaşların hüququ və azadlıqları ilə birbaşa əlaqədar olan konstitusiya üzrə aktual hüquqi, sosial-iqtisadi və digər sahələr üzrə sərbəst informasiya almaq hüququnun təminatına, əmək bazarının inkişafına yardım edən sosial institut-kitabxanalardır.

-Sahibkarlığa həsr olunmuş çap məhsulları, kitab və jurnallar, SD-lər, audio-video materialları, soraq-məlumat nəşrlərinin əhaliyə çatdırılması üçün kitabxanaların fondundan geniş istifadə etmək olar;

KİM-nin müxtəlif analoji variantları keçmiş MDB ölkələrindən Belorusiya və Özbəkistanda, qonşu Rusiya Federasiyasında geniş miqyasda həyata keçirilmiş və əldə olunan nəticələr YUNESKO-nun "Hamı üçün informasiya" proqramının aparıcıları tərəfindən bəyənilmişdir.

Bütün dövrlərdə cəmiyyətin ictimai-siyasi quruluşu sabit qalmadığı və zaman dəyişdiyi kimi kitabxanaların qarşısında duran məqsəd və vəzifələr də təzələnir. Vaxtı ilə partiya siyasətinə xidmət edən, hakim partiyanın ideoloji mərkəzi hesab edilən kitabxanalar indi tamamilə yeni istiqamətdə fəaliyyət göstərir. Milli Məclisin qəbul etdiyi "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"nda müasir dövrdə kitabxanaların əsas fəaliyyət dairəsi belə təyin edilmişdir:

"Kitabxana-elm,informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut;

Kitabxana işi - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi kitabxana sisteminin təşkili və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, hüquqi və fiziki şəxslərə kitabxana, informasiya və biblioqrafiya xidməti qaydalarını, kitabxanaçı-biblioqraf kadrların hazırlanmasını, kitabxanaların inkişafının elmi-metodiki təminatını əhatə edən fəaliyyət sahəsi "-dir.

Məhz rayonlarda Kitabxana-İnformasiya Mərkəzləri təşkil edilərkən bu vəzifənin yerinə yetirilməsinə ciddi fikir verilməlidir.

Bakıda fəaliyyət göstərən ABŞ səfirliyinin Respublikamızın regionlarında kitabxana işinin inkişaf etdirilməsi ilə əlaqədar bu günə qədər gördüyü işlər nəzərdə tutulanların yalnız bir hissəsidir. Bu sahədə müxtəlif tədbirlər gələcəkdə də təşkil ediləcəkdir və hörmətli oxucular bu haqda ətraflı məlumat alacaqlar.

***Zakirə ƏLİYEVA,***
***Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı***
***Əmin Əfəndiyev,***
***filologiya elmləri namizədi, dosent***

*P.S. Məqalənin əvvəli jurnalımızın ötən saylarında dərc edilmişdir.*